# MƏTBUAT VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR BÖLMƏLƏRİ ÜZRƏ TEST MÖVZULARI

1. "Kütləvi İnformasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu;
2. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu;
3. "Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu;
4. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu;
5. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu;
6. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat";
7. Azərbaycan Respublikasının Əmək Məcəlləsi üzrə:
   *Əmək müqaviləsi*
   *İş vaxtı*
   *İstirahət vaxtı və işçilərin məzuniyyət hüquqları*
8. Beynəlxalq Jurnalistlər Federasiyasının Jurnalist Davranışının Prinsipləri Haqqında Bəyannamə;
9. Azərbaycan jurnalistlərinin peşə davranışı Qaydaları.

## Ədəbiyyat

**1.** *"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu 30 sentyabr 2005-ci il, № 1024-IIQ;*
**2.** *"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu, 7 dekabr 1999-cu il, № 769-IQ;*
**3.** *"Məlumat azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu. 19 iyun 1998-ci il, № 505-IQ*
**4.** *"Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu. 30 sentyabr 2002-ci il № 365-IIQ*
**5.** *"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu 3 aprel 1998-ci il, № 460-IQ;*
**6.** *Azərbaycan Respublikasının Əmək Məcəlləsi 1 fevral 1999-cu il*
10. *Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 №-li Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"*
**7.** *2003-cü il martın 15-də Azərbaycan jurnalistlərinin birinci qurultayında qəbul edilmiş "Azərbaycan jurnalistlərinin peşə davranışı Qaydaları"*
**8.** *Beynəlxalq Jurnalistlər Federasiyasının (BJF) II Ümumdünya Konqresində (Bordo, 25-28 aprel 1954-cü il) qəbul edilmiş BJF Jurnalist Davranışının Prinsipləri Haqqında Bəyannamə*

**1.“Kütləvi informasiya vasitələri haqqında”Azərbaycan Respublikasının Qanununa əsasən kütləvi informasiya vasitəsi redaksiyasının və ya jurnalistin aşağıda göstərilən işlərdən hansıları görməsinə yol verilmir? Tam və doğru cavabı müəyyən edin.**

1)şəxsin gizli saxlanmaq şərtilə verdiyi məlumatı yayılan xəbər və materiallarda açıqlaması

2) adının bildirilməməsi şərtilə məlumat vermiş şəxsin kimliyini göstərməsi

3) təhqiqatçının, müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin icazəsi olmadan ibtidai istintaq və təhqiqat məlumatlarını yayması

4) cinayət etməkdə təqsirləndirilən yetkinlik yaşına çatmayanların və ya qanuni nümayəndələrinin razılığı olmadan onların şəxsiyyəti barədə hər hansı məlumatı yayması

A) 1, 2, 3 B) 2, 3, 4
C) 1, 2 D) 1, 2, 3, 4 E) 1, 2, 4

**2.“Kütləvi informasiya vasitələri haqqında”Azərbaycan Respublikasının Qanununa əsasən mətbu nəşr təsis etmək istəyən hüquqi və ya fiziki şəxs nəşrin çapından neçə gün əvvəl müvafiq icra hakimiyyəti orqanına rəsmi müraciət etməyə borcludur?**

A) 1 ay əvvəl B) 14 gün əvvəl
C) 7 gün əvvəl D) 5 gün əvvəl E) 10 gün əvvəl

**3.“İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən aşağıda göstərilənlərdən hansı doğru deyildir?**

A)İnformasiya və telekommunikasiya sistemlərində dövr edən sənəd elektron imzası vasitəsilə də təsdiq edilə bilər.

B)Dövlət hakimiyyəti orqanları onların sərəncamında dövlət informasiya ehiyatlarını formalaşdırır və səlahiyyətləri daxilində onlardan istifadəni təmin edirlər.

C)Əldə olunma növünə görə informasiya məxfi və alınması məhdudlaşdırılan informasiyalara bölünür.

D)Dövlət sirri təşkil edən konfidensial informasiyanın formalaşdırılma və işlənmə qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

E)Azərbaycan Respublikasının qanunu ilə əldə olunması məhdudlaşdırılmayan informasiyalar açıq informasiyalar sayılır.

**4.“İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən informasiya sorğusu hansı müddətdən gec olmayaraq icra edilməlidir?**

A) 7 iş günündən gec olmayaraq B) 7 gündən gec olmayaraq
C) 5 iş günündən gec olmayaraq D) 5 gündən gec olmayaraq
E) 10 gündən gec olmayaraq

**5.“Məlumat azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən məlumatın əldə edilməsi üçün sorğunun verilməsi və məlumat əldə edilməsi haqqında sorğuya baxılması hansı Qanunla tənzimlənir?**

A)"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə

B) “Məlumat azadlığı haqqında” Azərbaycan Respublikasının Qanunu ilə

C) “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanunu ilə

D)“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə

E)“İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə

Nümunə